

## ÖMÜR YAZAR

**Ömür Xəlil qızı Səfərova** 1991-ci ildə Füzuli rayonunda anadan olmuşdur.

2008-ci ildə Bakı şəhər Füzuli rayon adına 5 saylı tam orta məktəbi bitirmişdir.

2004-cü ildən etibarən bədii yaradıcılıqla məşğul olmağa başlamışdır. «Son məktub» ilk qələm məhsulu, 2014-cü ildə "Oxu məni" qəzetində yer almış "Rədd olacağam" şeiri isə ilk mətbu nailiyyətidir.

Bir sıra mətbu orqanlar müəllifin yaradıcılığına müraciət etmişdir.





## ƏSARƏT

Nədir bizi düşündürən, İlahi,
Nədir bizi düşüncəyə qərq edən...
Kimdir axı, kürəyimdən ox vuran,
Kimdir məni güllələyən, İlahi?!

Məgər çoxmu günaha yol vermişəm,
Buna görə dəhşətlidir ölümüm?
Buna görə Xocalıda faciə?
Qəm gəlir hər dəqiqə, hər saniyə!

Körpə balam göz önümdə doğranır,
Qan qoxulu gülüşləri götürmə...
Gəlin bacım əsirlikdə saxlanır,
Türk oğlunun hünərini bitirmə...

Nədir axı, günahsızın günahı –
Yağı əldə vətənimin torpağı...
Vardır əlbət, məzlumların Allahı –
Qarabağı yağılarda itirmə!

## QARA TORPAQ

Canımın ağrısı dözülməz ikən,
Ağrımı-acımı unutdum daha...
Bir az yuxum gəlir yatıram deyib
Gözlərimi yumdum, yetdim Allaha!

Yaman üşüyürəm, ey qara torpaq,
Sən ört üzərimi, sar, qara torpaq...
İki balam indi nə çəkir, görən,
Onlardan bir xəbər var, qara torpaq?!

Ağrıyan cismimə yer axtarıram,
Ruhumu göylərə yola salan mən...
Nəyi qoyub, indi nə axtarıram,
Bir vaxt özü, indi adı qalan mən!

Hər gün bir az daha ümid bağlarkən,
Saraldım payızın yarpağı kimi...
Mən yazı, baharı xəyal edərkən,
Qış özün göstərdi bir yağı kimi!

Məni dualarda yad edin daha,
Bir vaxtlar qapıma gələn dostlarım...
Balam əmanəti deyib gedirəm,
Qədir-qiymətimi bilən dostlarım!





## DƏNİZ APARDI

Yoruldum həyatın kirli üzündən,
Sonsuzca uzandım dənizə sarı...
Bəlkə ürəyimdən yuya apara,
Yarımçıq sevgimi, əbədi yarı!

Hər kəs bir mənfəət umdu, istədi,
Kim dərdimi bildi, düzələr dedi...
Mən sevgi yoxsulu, sevgi gözlədim,
Mən gözlərkən o da ömrümü yedi!

Ey insan başına tamah edənlər,
Yeyib bitirdiniz, görürsünüzmü?!
Mən cəmi bir dəfə ölüb getmişəm,
Siz hər gün dirilib ölürsünüzmü?!

Gəlmə məzarıma, sevmirəm deyən,
Gəlib çıxacaqsan necə qarşıma...
Mən torpağın altda, sən üst tərəfdən –
Aram-aram nəzər sal başdaşıma!

İndi rahatlaşın, rahat yaşayın,
Mən ölmədim, məni siz öldürdünüz...
Gedirəm son dəfə, mənim üzümü
Saxta təbəssümlə siz güldürdünüz!

Ey dəniz, mən təki yaralı dəniz,
Gəlirəm al məni, sar qollarına...
Hər bir kəsdən ümid üzən kimsəsiz,
Təkcə sığınıbdır dalğalarına!

Məni yuyundurub dəniz apardı,
Siz kirli insanlar, batdıqca batın...
Mən əbədi yuxu görürəm daha,
Siz dünya evində rahatca yatın!

Ömür karvanımın dayanacağı,
Dayandı düşürəm salamat qalın...
Mən son günahımı edib gedirəm.
Siz babal götürün, günahlar alın!

## QARABAĞIM

Qarabağım nəfəssizdir o tayda,
Biz bu tayda nəfəs ala bilirik...
O yağılar tapdağında ac-susuz,
Biz adına kafe aça bilirik!

Əməlimiz əməlindən utanır,
Dildə vətən eşqimiz çoşub-daşır...
Ürəyimin başı şan-şandır, yanır,
Bizə oddan qiyafələr yaraşır?!





Mən həsrətə son qoymayan xeyirsiz.
Füzulimin həsrəti en qədərdir...
Varlığını yoxluğunda aradım,
Sənli günlər sənsiz yaman hədərdir!

Əlim qələm tutmağa da utanır,
Hər qarınşın ayrı-ayrı vətəndir...
Gözlərimdə üsyanında canlanır,
Məni tənha qoymusunuz, nədəndir?!

Mən yetiməm bu dünyada, ey anam,
Ana vətən, sənin qədər yetiməm...
Nə anam var sən gedəli, nə atam,
Unutmuşam haralıyam, mən kiməm?!

Ömür yazar, yazdıqca da ağlayar,
Neçə yaşı olsa səndə uşaqdır...
Neçə səksən yaşlı uşağın öldü,
Məzarları belə səndən uzaqdır!

## PARÇA-PARÇA OLLAM

Uşaqkən yer ilə göy arasında –
Nərdivan boyunda yol var sanardım...
İndi bu ürəyim buz bağlasada,
Əvvəl dərd çəkərdim, oda yanardım!

Kimə görə yaman soyuq biriyəm,
Deyirlər: – Qaynayıb qarışmayırsan...
Daha soruşmur ki, zalım uşağı:
– Tüstüləndin, niyə alışmayırsan?!

Qınamaq olmayır Adəm övladın,
Çünki, o övladın biridə mənəm...
Əyri-üyrü yolda, səhv-sühv yazıram.
Təqsir məndə deyil, təqsirkar sinəm!

Nə səndə günah var, nə mən yetimdə,
Nə səndən küsgünəm, nə də özümdən...
Elə anlar gəlir, güzgüyə baxıb
Düşüb parça-parça ollam gözümdən!

Kəndirin kəsilsin kəndir bağlayan,
Nə həşir gəlmisən özünə, dayan...
Neçə illərdir ki, yatdın bəs edər,
İndi gözlərini açaraq oyan!

Yalan yalançıya doğru gələrsə,
Doğruya yalançı deyəcək əlbət...
Ömür, hər ifadən doğru olsada,
Doğrunu yalana çevirər xəlvət!